## Qar da ələndi

*Xalq şairi Musa Yaqubun*
*bu payız dərdi şeirinə nəzirə.*

***O tənha yuvalar necə dözəcək?***

***Bu payız dərdi götürüb məni***
***Bu payız nəfəsi yasa boyandı,***
***Analar qəlbində hicran oyandı,***
***Fələk taleləri elə sınadı,***
***Bu payız ağladı, yasa bələnib.***
***Sevən ürəklərə qar tək ələnib***

***Oğullar getdisə qayıtmaz oldu,***
***Əkdiyi çiçəklər donaraq soldu,***
***Payızın xəzəli könüllər qoydu,***
***Məzarlar toy kimi gülə bələndi***
***Sevən ürəklər qar tək ələndi.***

***Qaldı anaların boxçası bağlı***
***Atalar yaşayır sinəsi dağlı***
***Payız məhəbbəti məzara bağlı***
***Eşqlər layla çaldı, göy silkələndi,***
***Sevən ürəklər qar tək ələndi.***

***Analar qəlbində baharlı bitdi,***
***Ümidlə böyüdən oğul da itdi,***
***Şəhidlər cənnətdə kamına yetdi,***
***Dağlara, düzlərə qanı çiləndi,***
***Sevən ürəklər qar tək ələndi.***

***Elimə, obama yas oldu payız,***
***Qaldı bülbülün də bağçası yalqız,***
***Ömürlük yas saxlaəhdə bağlı qız,***
***O, da bu dünyaya de bəxtsiz gəlib,***
***Sevən ürəklər qar tək ələnib.***

**<u>Şəhla Xəlilqızı</u>**
Qızıl Qələm media mükafatı,
Qəbələnin Səsi ədəbi məclisin rəhbəri
***(ardı var)***

**Paralel.- 2023- cü il.- 13 aprel.- S. 13.**